Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 298

# QƏRAR

Bakı şəhəri, 8 avqust 2016-cı il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 43 nömrəli qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin icbari sığortası üzrə sığorta haqlarının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi Qaydası"nda dəyişikliklər edilməsi haqqında

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 148-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli 1879 nömrəli Sərəncamının 1.2-ci və 1.4-cü bəndlərinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 43 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 186) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin icbari sığortası üzrə sığorta haqlarının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-ci bənddə "Nazirliyə" sözü "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına (bundan sonra - Palata)" sözləri ilə əvəz edilsin.

2. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Palata bu qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş hesabata və sənədlərə onlar Palataya daxil olduğu tarixdən 10 iş günü müddətində baxır.".

3. 3.3-cü bəndin üçüncü cümləsi çıxarılsın.

4. Aşağıdakı məzmunda 3.3-1-ci və 3.3-2-ci bəndlər əlavə edilsin:

"3.3-1. Palata bu qaydanın 3.6-cı bəndində nəzərdə tutulmuş sığorta haqlarının ödənilməsindən imtina halları aşkar etmədikdə, sığorta haqlarının müvafiq sığortaçıya ödənilməsi üçün rəyin əks olunduğu müraciəti Nazirliyə ünvanlayır.

3.3-2. Nazirlik müraciət daxil olduğu tarixdən 15 iş günü müddətində müvafiq sığorta haqlarını sığortaçıya məxsus bank hesabına köçürür.".

5. 3.4-cü və 3.5-ci bəndlərdə "Nazirliyə" sözü "Palataya" sözü ilə əvəz edilsin.

6. 3.6-cı bənddə "Nazirlik tərəfindən sığorta" sözləri "Sığorta" sözü ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***